# Qarabağ bütün dünyaya açılır



**Füzuli Beynəlxalq Hava Limanı bölgədə quruculuq işlərini daha da sürətləndirəcək**

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və Azərbaycan Ordusunun uğurlu əməliyyatları sayəsində ötən il 44 günlük Vətən müharibəsi qələbə ilə başa çatdı. Qarabağda, o cümlədən Füzuli rayonunda yüksək səviyyədə yenidənqurma və bərpa işlərinə start verildi.

Bir il bundan öncə 30 illik erməni tapdağından azad edilən bu yerlərin torpağı da, daşı da indi başqa görkəmdə qəlblərdə məmnunluq və qürur hissi doğurur. Bunun bir səbəbi də qardaş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərinin Füzulidən başlaması oldu. Türk liderinin Azərbaycan Prezidenti İlham Əliyevlə bu görüşü payızın bu günlərində könüllərə istilik gətirdi, insanlarda hər iki ölkənin prezidentinə, dövlətinə, xalqına və milli həmrəyliyinə rəğbət və məhəbbət hissini daha da artırdı. Bütün dünya Füzulidə Qarabağın müasir tarixinə əbədilik həkk olunan əlamətdar bir görüşün şahidi oldu. Bu görüşdə Türk lideri ilə birlikdə ölkəmizə və xalqımıza həmişə yüksək dəyər verən insanlar - ətraf mühit və şəhərsalma naziri Murat Kurum, xarici işlər naziri Mövlud Çavuşoğlu, milli müdafiə naziri Hulusi Akar, nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlu, prezidentin kommunikasiya direktoru Fahrettin Altun və Prezident Administrasiyasının sözçüsü İbrahim Kalın da iştirak edirdilər. Türkiyə liderinin Azərbaycanın dövlət başçısı İlham Əliyevlə birlikdə Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirakı, hər iki dövlət başçısına hava limanının rəmzi açarlarının təqdim olunması insanlara xoş duyğular yaratdı.

Hər iki liderin bölgədə çəkiləcək Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməlini qoyması Avrasiya məkanına yeni iqtisadi töhfələr verəcək. Bununla da coğrafiyamız dünya xəritəsində önəmli kommunikasiya istinadgahlarından birinə çevriləcək. Azərbaycan və Türkiyə regionda yeni geosiyasi nizam formalaşdırmaqla sabit yaşayışın və təhlükəsizliyin təmin olunmasına zəmin yaradacaq. Ekspertlərin fikrincə, Azərbaycan, Türkiyə, Rusiya, Çin və İngiltərənin dəstəklədiyi Zəngəzur dəhlizinin Mərkəzi və Orta Asiyadan Qərbə aparan əsas tranzit xətt olması nəzərdə tutulub. Bu, çox ciddi və siyasi bir yoldur. Belə bir strateji xəttin üzərində hava limanlarının salınması zəruridir. Hər iki dövlət başçısının Zəngilan rayonunda DOST Aqroparkın, eləcə də rayonun Ağalı kəndində həyata keçirilən “ağıllı kənd” layihəsi çərçivəsində görülən işlərlə tanışlığı bu yerlərin uğurlu gələcəyindən xəbər verir.

Sevindirici hal odur ki, coğrafi baxımdan əlverişli mövqedə yerləşən Füzulidə, eləcə də Qarabağın işğaldan azad olunmuş digər bölgələrində aparılan quruculuq və bərpa işləri möhtəşəmliyi ilə gündəmdədir. Ötən müddətdə Füzuli rayonunun inkişafı ilə əlaqədar Horadiz qəsəbəsinə şəhər statusu verilib, rayonun qeyri-rəsmi mərkəzi müəyyən edilib. Sosial infrastruktur layihələri sırasında 24 məktəb, 2 xəstəxana, Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, Muğam Mərkəzi tikilib. Fərdi evlərin bərpası işləri görülüb. Bu və digər işlər sırasında Azərbaycan Prezidentinin cari ilin yanvar ayında imzaladığı sərəncama əsasən, Füzuli Beynəlxalq Hava Limanının qısa müddətdə tikilib istifadəyə verilməsi xüsusilə diqqətçəkəndir. Dünya standartları səviyyəsində tikilən bu beynəlxalq aeroport müasirliyi ilə göz oxşayır. Burada nəzərdə tutulan bütün tikinti və ətraf ərazinin abadlaşdırılması vaxtından əvvəl və yüksək keyfiyyətlə başa çatdırılmışdır. Hava limanı istənilən tip hava gəmisini qəbul etmək imkanına malikdir. Burada baqaj konveyerlərinin, qeydiyyat sisteminin, VİP zalların, mağazaların, restoranların və digər məntəqələrin fəaliyyəti nəzərə alınmaqla saatda ən azı 200 sərnişin buraxılışına imkan verən terminalın tikintisi də yekunlaşıb.

Füzuli şəhəri yaxın illərdə 50 min sakini olan yaşayış məntəqəsi kimi istifadəyə veriləcək. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də rayonda səfərdə olarkən Füzuli şəhərində salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak ediblər. 17,8 hektar ərazini əhatə edəcək yaşayış məhəlləsi mərhələli şəkildə tikilib istifadəyə veriləcək. Əvvəlcə burada ümumilikdə 2860 nəfərin məskunlaşması nəzərdə tutulur. Bir, iki, üç və 4 otaqlı 65 mənzildən ibarət dörd-beş mərtəbəli binalar inşa ediləcək. Həyət tipli yaşayış məhəlləsinin inşasında ənənəviliklə müasirlik vəhdət təşkil edəcək. Ən başlıcası, bu kompleks şəhərin yerli memarlıq simasını özündə ehtiva edəcək. Ərazidə iş mərkəzləri, ticarət, ictimai iaşə, mədəniyyət və məişət-kommunal obyektləri də açılacaq. Dünyanın ən müasir şəhərlərində rast gəlinən velosiped yolları salınacaq. Görünən odur ki, yaradılacaq şərait doğma yurdlarına qayıdacaq rayon sakinləri üçün şəhər mühitindən fərqlənməyəcək. Başdan-başa yaşıllıq sahələri ilə əhatə olunan ərazidə hovuzlar və fəvvarələr göz oxşayacaq. Füzuli yaxın gələcəkdə Qarabağda ikinci ən böyük şəhərə çevriləcək.

Bu günlərdə Azərbaycan Prezidentinin sərəncamına əsasən, rayonun Dövlətyarlı kəndində yeni salınacaq “ağıllı kənd” layihəsinin icrasına başlanılıb. Layihəyə əsasən burada üç, dörd və beşotaqlı mənzillərdən ibarət 450 ev inşa ediləcək. Paralel olaraq müasir tipli uşaq bağçası, məktəb, inzibati binalar, xəstəxana inşa ediləcək, kəndin mərkəzində meydan yaradılacaq, əlverişli yerdə bazar istifadəyə veriləcək... Bir sözlə, şəhərə məxsus bütün infrastrukturlar formalaşacaq. Dövlətyarlı kəndində “ağıllı kənd” konsepsiyasına uyğun yaradılacaq böyük yaşayış məntəqəsi layihəyə əsasən beş kəndi birləşdirəcək.

Ekspertlərin fikrincə, işğaldan azad olunmuş ərazilərdə icra olunacaq “ağıllı kənd” və “ağıllı şəhər” konsepsiyaları dünyada ilk olacaq. Azərbaycan heç bir dövlətdən maliyyə dəstəyi almadan bu cür layihələri icra etməklə burada müasir və innovativ texnologiyalarla təchiz olunmuş mühit yaradacaq, insanların rahatlığı maksimum dərəcədə təmin ediləcək və şəhərə məxsus bütün infrastrukturlar formalaşdırılacaq. Bir sözlə, yeni şəhər işğaldan əvvəlki şəhər ilə müqayisədə daha geniş əraziyə malik olacaq. Növbəti 20 ildə əhali sayı 1993-cü illə müqayisədə 2,5 dəfə artacaq və Füzuli şəhəri hava limanı da daxil olmaqla, 1936 hektar əraziyə malik olacaq. Şəhər yalnız hündürmərtəbəli binalardan ibarət olmayacaq. Burada az və ortamərtəbəli çoxmənzilli binalar da inşa ediləcək, həyətyanı bağ sahələri olan fərdi evlər də tikiləcək.

Rayonun fasiləsiz elektrik enerjisi ilə təchizatı məqsədilə bu günlərdə “Azərişıq” ASC-nin Füzuli şəhərində Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzinin tikintisinə başlanılıb. Rayon ərazisində yol infrastrukturunun yenidən qurulması, həmçinin ətraf rayonlara gediş-gəlişin təmin olunması da gündəmdədir. Füzuli-Şuşa magistral yolunun, Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Füzuli-Ağdam yollarının çəkilişi sürətlə davam etdirilir.

Füzuli şəhərinin mərkəzində 5 hektar ərazidə Memorial Kompleksi salınacaq. Orada İşğal muzeyi və Zəfər parkı olacaq. Şəhəri əhatə edən yüksəklikdə Bayraq meydanı yaradılacaq. Füzuli şəhərində 21 hektarlıq böyük meşə parkı salınacaq. Ərazidə 5000-dən çox Eldar şamı, həmişəyaşıl sərv, zeytun, Şərq çinarı, ağcaqayın və digər növ ağaclar əkiləcək.

Xatırladaq ki, Qarabağda ərazilərin erməni işğalından azad edilməsi üçün ilk uğurlu əməliyyat Ulu Öndər Heydər Əliyevin prezident seçilməsindən az sonra - 1994-cü ilin əvvəllərində həyata keçirilib və Füzuli rayonunun 22 yaşayış məntəqəsi, o cümlədən Horadiz qəsəbəsi düşməndən təmizlənib. Ötən müddətdə bu ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılıb, məcburi köçkünlər üçün 17 qəsəbə salınıb. Bir neçə gün bundan əvvəl rayon ictimaiyyəti ilə keçirilən görüşdə Azərbaycan Prezidenti kimi Füzuli rayonunda 12 dəfə olduğunu açıqlayan Müzəffər Ali Baş Komandan İlham Əliyev deyib: “Burada köçkünlərlə görüşərək hər zaman onlara deyirdim ki, Füzuli şəhəri və rayonun qalan hissəsi azad olunandan az sonra biz daha yaxşı evlər tikəcəyik, daha gözəl şərait yaradacağıq və siz qayıdacaqsınız. Bu gün bunu artıq hər kəs görə bilir. Çünki Füzuli rayonunda artıq icra edilən layihələr bizim həm niyyətimizi, həm potensialımızı göstərir”.

Azərbaycan-Türkiyə dostluğu və strateji müttəfiqliyi sayəsində tədricən Qarabağda həyat öz əvvəlki axarına qayıdacaq, hətta əvvəlkindən də gözəl sosial şərait yaradılacaq. Şübhəsiz ki, Füzuli Beynəlxalq Hava Limanının açılması bölgədə quruculuq işlərini daha da sürətləndirəcək. Azərbaycan Prezidentinin diqqət və qayğısı sayəsində keçmiş məcburi köçkünlərimiz tezliklə erməni vandallarından azad edilmiş öz doğma yurdlarına - Füzuliyə və digər rayonlara qayıdacaqlar.

*Rəhman SALMANLI,*
*“Azərbaycan”*